**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№381/4** **03 noyabr 2025-ci il**

**Auditor xidməti bazarında qeyri-qanuni sahibkarlıq fəaliyyəti göstərən şəxslərin aşkar edilməsinə dair 2025-ci ilin III rübü üzrə aparılmış monitorinq barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 9.9-cu "Auditor xidməti bazarında qeyri-qanuni sahibkarlıq fəaliyyəti göstərən şəxslərin aşkar edilməsi üzrə monitorinqin aparılması və nəticəsinə dair təkliflərin verilməsi" bəndinin icrasını təmin etmək məqsədilə Palatanın Auditin təşkili və hesabatlılıq idarəsi (V.Cavadov) və Haqsız rəqabətə qarşı mübarizə idarəsi (R.Cəfərli) tərəfindən auditor xidməti bazarında qeyri-qanuni sahibkarlıq fəaliyyəti göstərən şəxslərin aşkar edilməsi istiqamətində 2025-ci ilin III rübü üzrə aparılmış monitorinqin nəticələrinə dair hazırlanmış arayışı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditor xidməti bazarında qeyri-qanuni sahibkarlıq fəaliyyəti göstərən şəxslərin aşkar edilməsinə dair 2025-ci ilin III rübü üzrə aparılmış monitorinqin nəticəsi barədə arayış nəzərə alınsın (əlavə olunur).

2. Auditin hüquqi tənzimlənməsi və cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə idarəsinə (E.İbrahimov) tapşırılsın ki, ayayışda adları qeyd olunan və icazəsi olmadan qeyri-qanuni fəaliyyət göstərən hüquqi şəxslər ("Azər Audit Konsalting" MMC, "M Finance Azerbaijan" MMC, "Partnyor" MMC, "Paychi Group" MMC) barədə məlumatların müvafiq qaydada hüquqi tədbirlərin görülməsi məqsədilə Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilməsi təmin edilsin.

3. Auditin təşkili və hesabatlılıq idarəsinə (V.Cavadov) tapşırılsın ki, auditor xidməti bazarında qeyri-qanuni sahibkarlıq fəaliyyəti göstərən şəxslərin aşkar edilməsi istiqamətində müntəzəm işlər aparılsın və belə hallar olduğu təqdirdə təsərrüfat subyektlərinə xəbərdarlıq edilməsi məqsədilə onlar barədə məlumatların Auditorlar Palatasının internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

4. Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**